# Azərbaycan dilindən dərs nümunəsi

**Tünzalə BAĞIROVA,**
*Şamaxı şəhər 2 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi*

**II sinif**

*Mövzu:* "Torpağın nağılı"

*Standart:* 1.2.1, 2.2.4

*Dərsin tipi:* İnduktiv.

*İş forması:* kiçik qruplarla iş

*Tədris üsulları:* beyin həmləsi, rollu oyun, anlayışın çıxarılması.

*Resurslar:* kompüter, proyektor, elektron lövhə, dərslik, iş vərəqləri

*İnteqasiya:* Həyat bilgisi.

*Standart:* 1.2.1

*Texnologiya:* 1.2.1

*Təsviri incəsənət:* 2.2.2

*Musiqi:* 1.2.3

*Məqsəd:* Dərsin sonunda şagird:

- Mətndəki əsas fikrə münasibət bildirir;
- Dinlədiyi mətndəki məlumatları əvvəl bildikləri ilə müqayisə edir;
- Mətndəki sözləri yaxın mənalı sözlərlə əvəz edir.

Mövzu vətənpərvərlik olmasa da motivasiyanı müasir dövrlə əlaqələndirirəm. Çünki şagirdlərə vətənpərvərlik hissi aşılamağı özümə borc sayıram.

*Motivasiya:* Bu mərhələni şəkillər və suallar əsasında qururam:

M.: - Nəyin uğrunda şəhid oldular?

Ş.: -Vətən uğrunda.

M.: -Nə düşmən tapdağı altındadır?

Ş.: -Torpaqlarımızın 20%-dən çoxu düşmən tapdağı altındadır.

M.: -Neçə rayonumuz işğal altındadır?

Ş.: -12 rayonumuz erməni təcavüzkarları tərəfindən işğal edilib.

M.: -Neçə milli qəhrəmanımız var? Onlardan kimləri tanıyırsınız?

Ş.: -210-dan çox milli qəhrəmanımız var. Onlardan Elbrus Allahverdiyevi, Faiq Cəfərovu, Səfiyar Behbudovu, Fərhad Ağayevi, Çingiz Mustafayevi və b. tanıyıram.

M.: -Şəkildə hansı şəhəri görürsünüz?

Ş.: -Azərbaycanın qədim şəhəri Şuşanı görürük.



Şagirdlərdən suallarıma cavab alandan sonra torpaq şəklini göstərirəm. Açıqlanır ki, bugünkü dərsimiz torpaqla əlaqəlidir.

Mövzunun adı səslənir: "Torpağın nağılı". Mətn oxunur, təhlil olunur.

Şagirdlərə bildirilir ki, insanların torpağa sevgisi sonsuzdur. Zəhmətkeş insan torpağa baxarsa, əkib becərərsə, nağılda deyildiyi kimi, alaq otlarından təmizləmiş olarsa, torpaqdan bol məhsul götürmüş olar.



Onlara mətndə adıçəkilən qaratikanın görüntüsünü nümayiş etdirirəm. Torpaqda bitən alaq otları haqqında danışıram.

*Tədqiqat sualı:* Torpağın insan həyatında rolu nədən ibarətdir?

*Tədqiqatın aparılması:* Qruplarla iş.

4 müxtəlif rəngdə fiqurlar şagirdlər tərəfindən götürülür, rənglərə uyğun qruplara ayrılırlar. Mətnə əsasən qruplara ad verilir. Qrupların iş vərəqləri paylanır. Elektron lövhədə saat vasitəsi ilə vaxt qurulur.

*"Günəş" qrupu:*

1. "Torpaq deyir, əyil mənə, ucaldım səni" atalar sözünü geniş izah edin.
2. Hansı rayonlarımız işğal altındadır?

*"Torpaq" qrupu:*

1. Torpağa qulluq etməsək nə olar?
2. Verilmiş rəngsiz xəritədə işğal olunmuş rayonları rəngləyin. Bu tapşırıq təsviri incəsənət fənni ilə inteqrasiya olunub.






*"Külək" qrupu:*

1. İnsanın təbiətə köməyi və ziyanı haqqında yaz.
2. Verilmiş qarışıq meyvə və tərəvəz şəkillərini kəsib ayıraraq yapışdırın. Bu tapşırıq texnologiya fənni ilə inteqrasiya olunub.



*"Yağış" qrupu:*

1. Verilmiş atalar sözünü düzgün yaz.

Deyir məni, dirildim öldür səni Torpaq.

2. Mətnə əsasən rollu oyun.

Rollu oyun zamanı kompüterdən istifadə edərək yağışın, küləyin, traktorun səsini dinləmələrini təmin edirəm. Maraqlı səhnəcik qurulur. Oyun yeni mövzunun şagirdlər tərəfindən tam mənimsənildiyini üzə çıxarır.

*Qiymətləndirmə aparılır:*

Sonda bütün deyilənləri ümumiləşdirərək alınan nəticəni şagirdlərin nəzərinə çatdırıram.

Torpaq qiymətli, müqəddəs nemətdir. Onu qorumaq, qayğısına qalmaq lazımdır.

Ona görə atalar deyib: "Torpaqdan pay olmaz".

Şagirdlərimə ulu öndər Heydər Əliyevin xalqını, onun təbiətini necə qəlbən sevməsi, Azərbaycan xalqı, onun torpaqlarında tökülən nahaq qanın qarşısını alması haqqında geniş məlumat verirəm.

Beləliklə, şagirdlərim torpaq anlayışını, onun qayğısına necə qalmağı, əkib becərməyin xeyrini öyrənməklə yanaşı, vətənə olan sevgilərini də nümayiş etdirmiş olurlar.